## *Özbəkistandan baxanda*

**Qafur Qulam**
Özbəkistan Xalq şairi

# Səməd Vurğuna məktub

Şərəfli bu ölkənin lacivərd göylərini
Parlaq, nurlu ulduzlar bəzəmişdir əsrlər.
Nəzər salsan çox qədim tarixlər karvanına
Öz xalqına irfandan vermiş dürlü xəbərlər.

Qədim atəşkədələr müqəddəs ocağında,
Sərkərdəmiz Babəkin sönməyən nəfəsi var.
Yamaclarda, dağlarda, vadilər qucağında
Məğlubiyyət bilməyən xalqın qalib səsi var.

Sevgi olmayan yerdə hüsn ilə camal yoxdur,
Nə şərab, nə musiqi, nə ürəkdə ehtişam.
Qəzəlsiz ömürlərdə iqbal və kamal yoxdur,
Nəğməsiz ürəklərdə nə ehtiras, nə ilham.

Qədim-qədim dinlərin məhəbbətsiz ərkanı,
Xalqımız idrakını dondurmaq istəyərdi.
Əl-həzər, musiqini, gözəllər camalını,
Şərab, rəsm çəkməyi qadağan eyləyərdi.

Yox, yox, belə getmədi, yabancı əqidələr,
Bulud tək gizlətmədi gözəllik afitabın.
Cəhənnəm atəşləri, təhlükələr, tənələr,
Susdura biləmmədi xalq qəlbinin rübabın.

Məhsəti qəzəlləri bu diyarın köksü tək,
Ürəklərdən yer aldı – bir müqəddəs can kimi.
Nizami dastanları xalqın öz duyğusu tək,
Həmişə yaşarıdır – əbədi zaman kimi.

Qandaşım, qarındaşım, qardaşım Səməd Vurğun,
Könül təsəllisiyçün tarixdən dediyim bəs.
Sən öz xalqın şairi, xalqlar əbədi durğun
Damarında qanındır, ürəyindəki nəfəs.

Şərəfli bu ölkənin köksündə ulduz kimi,
Azər gözəllərinin çöhrəsində göz kimi,
Uşaqlar dodağında ən birinci söz kimi,
Halal zəhmət aşında pak-pakizə duz kimi.

Sənin şeirlərinin şöhrəti dünyayla bir,
Bugünün sənədidir, gələcək xəzinəsi.

Üfüqləri titrədən bir ildırım səsidir,
Bir azər aslanının əzəmətli nərəsi.

Amma bir həqiqət var dünyada qaya timsal,
Bu həqiqət babalar zəkasıdır münəvvər.
Həqiqət aləmində bu inam tapmaz zaval,
Sənə, mənə keçmişdən verib gəlmiş çin xəbər.

Sən ağsaçlı Qafqazda, mən Mavərəunnəhrdə[1],
Nurşirəvan qəsri tək hər ikimiz yüksəldik.
Bizim şöhrət-şanımız neçə kənddə, şəhərdə,
Dan çağı tək qızardı, düşmən köksünü dəldik.

Xalqımız, Vətənimiz, Dövlətimiz, Möhrümüz,
Hamısı min-min illər olacaqdır bərqərar.
Yenilməz inamımız, qüdrətimiz, mehrimiz,
Bizim güvənc yerimiz – ulu ların ruhu var.

Bu böyük əqidəylə dilləndirdin sazını,
Xalqı tərənnüm edən nəğmələrə cor olub.
Vətən keçmişlərini mədh edən avazını,
Qoy bu cahan dinləsin həmişə məğrur olub.

Ən yaxın dostlarımı bir-bir yada salarkən,
Səməd Vurğun adını söylərəm qürur ilə.
Çünki biz bir yaşadıq, qoşa yazıb-yaratdıq,
Qəlbimizdə məmnunluq, bir dünya sürur ilə.

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
**Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru**

[1] Mavərəunnəhr – Orta Asiyanı ərəblər belə adlandırırdılar.